# Orta Dəhliz: İki qitəni birləşdirən strateji əməkdaşlıq marşrutu

**2014-cü ilin fevralında Azərbaycan, Qazaxıstan və Gürcüstanın birgə təşəbbüsü ilə yaradılan "Trans-Xəzər Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) layihəsi illər keçdikcə daha da genişlənib. Bu strateji nəqliyyat dəhlizinə sonradan Ukrayna, Rumıniya və Polşa kimi ölkələr də qoşularaq onun əhatə dairəsini artırıblar. Orta Dəhliz - Şərqdən Qərbə uzanan mühüm nəqliyyat arteriyasıdır. Çin Xalq Respublikasını Mərkəzi Asiya, Qafqaz və Türkiyə üzərindən Avropa İttifaqı ilə birləşdirən bu multimodal marşrut həm Şimal marşrutuna (Çin-Qazaxıstan-Rusiya-Belarus-Avropa), həm də Süveyş kanalı vasitəsilə dəniz yoluna alternativ kimi çıxış edir. Dəhliz Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstanı keçib Xəzər dənizi vasitəsilə Azərbaycan və Gürcüstanadək uzanır. Buradan isə iki istiqamətdə davam edir: biri Türkiyə üzərindən birbaşa Avropaya, digəri isə Qara dəniz yolu ilə Ukrayna, Rumıniya və Bolqarıstana uzanır. Bu gün Orta Dəhliz qitələri birləşdirən ən qısa və ən rahat ticarət yollarından biridir. Onun strateji əhəmiyyəti və logistik üstünlükləri region ölkələri üçün yeni iqtisadi perspektivlər açır.**




Avropa və Asiya qitələri arasında strateji mövqedə yerləşən Azərbaycan Orta Dəhlizin rəqabət qabiliyyətini artırmaq üçün mühüm layihələr reallaşdırıb. Bu istiqamətdə atılan ən önəmli addımlardan biri Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun inşası olub. 2007-ci il fevralın 7-də Prezident İlham Əliyevin təşəbbüsü ilə Tbilisidə bu layihəyə dair tarixi saziş imzalanıb. Həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolunun təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qarsda Qars-Gürcüstan sərhəd xəttinin inşasına start verilib. Ümumi uzunluğu təxminən 850 kilometr olan BTQ dəmir yolunun 500 kilometrdən çox hissəsi Azərbaycan ərazisindən keçir. 2017-ci il oktyabrın 30-da istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu Orta Dəhlizin əsas hissələrindən biridir. Bu magistral xətt Şərqdən Qərbə yük daşımalarını sürətləndirərək, qədim İpək Yolunun müasir infrastruktur üzərində yenidən canlanmasına şərait yaradır. Xüsusilə BTQ-nin istismara verilməsi ilə Çin və Avropa arasında yükdaşımaların müddəti dəniz marşrutu ilə müqayisədə iki dəfədən çox azaldılıb. Regionun sabitliyi və təhlükəsizliyinə töhfə verən bu strateji dəmir yolu, eyni zamanda xarici ticarət əlaqələrinin genişlənməsi və iqtisadi inkişaf üçün geniş imkanlar yaradır. 2024-cü ildə icra olunan yenidənqurmadan sonra dəmir yolunun ötürücülük qabiliyyəti ildə 5 milyon tona çatdırılmışdır.

Orta Dəhlizin bir sıra mühüm üstünlükləri mövcuddur. Ən başlıcası, marşrut boyunca vahid tarif və "bir pəncərə" prinsipi tətbiq edilir. Bundan əlavə, dəhlizin keçdiyi ölkələrdə təhlükəsizliyin yüksək səviyyədə təmin olunması da onun cəlbediciliyini artırır. Məhz bu amillər sayəsində Avropa və Asiyadakı ölkələr, eləcə də yükdaşıma şirkətləri Orta Dəhlizə böyük maraq göstərirlər. 2024-cü ildə Çindən Orta Dəhlizlə daşınmış yüklərin həcmi 2023-cü illə müqayisədə 25 dəfədən çox artaraq 27 min konteyneri keçib. Davamlı tədbirlər, görüşlər və razılaşmalar sayəsində ötən il Çindən Azərbaycana 358 konteyner blok-qatarı göndərilib ki, bu da Orta Dəhlizlə yükdaşıma həcminin artdığını və Azərbaycanın beynəlxalq nəqliyyat sistemindəki rolunun daha da gücləndiyini göstərir. Orta Dəhlizin tək Şərq-Qərb marşrutu kimi yox, həm də Qərb-Şərq nəqliyyat arteriyası kimi inkişafını dəstəkləmək məqsədilə 2024-cü ilin noyabr ayında Bakıdan dəmir yolu ilə ilk ixrac yükü Çinə göndərilib. Bu, yerli sahibkarlara öz yüklərini Orta Dəhlizlə birbaşa Çinə göndərməyə şərait yaradır. Qeyd edək ki, 2025-ci ildə Orta Dəhliz vasitəsilə Azərbaycan ərazisindən 600 konteyner blok-qatarı göndərilməsi nəzərdə tutulub. Gələcək hədəf isə bu göstəricini ildə 1000 blok-qatara çatdırmaqdır. 2023-cü ildə Azərbaycan üzərindən yük tranzitinin həcmi 13,4 milyon ton təşkil edib ki, bunun da 4,3 milyon tonu Orta Dəhlizin payına düşür.

Azərbaycanın işğaldan azad olunmuş əraziləri də Orta Dəhlizin bir hissəsinə çevrilir. Hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bu layihələr həmin regionları beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək və Orta Dəhlizin inkişafına güclü təkan vermək məqsədi daşıyır. Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında İran ərazisindən keçməklə yeni dəmir yolu və avtomobil yollarının çəkilməsi, eləcə də rabitə və enerji infrastrukturunun qurulması üçün intensiv işlər aparılır. Bu məqsədlə 2022-ci il martın 11-də Azərbaycan və İran hökumətləri arasında yeni kommunikasiya bağlantılarının yaradılmasına dair Anlaşma Memorandumu imzalanıb. Bu sənəd çərçivəsində 2023-cü il oktyabrın 6-da Zəngilanda mühüm infrastruktur layihələrinin icrasına start verilib. Burada avtomobil körpüsünün və sərhəd-gömrük infrastrukturunun təməli qoyulub, həmçinin ərazidə sahilbərkitmə tədbirləri ilə bağlı tikintiyə başlanılıb. Bütün bu addımlar Azərbaycanın nəqliyyat sektorunda yeni bir dövrün başlanğıcını qoyur və regionun strateji əhəmiyyətini daha da artırır.

Orta Dəhlizin mühüm bir qolu kimi formalaşan Bakı-Naxçıvan-Qars dəmir yolu regional əməkdaşlığı daha da gücləndirəcək və bölgənin iqtisadi inkişafına, eləcə də əhalinin rifah səviyyəsinin yüksəlməsinə töhfə verəcək. 2023-cü il sentyabrın 25-də Azərbaycan və Türkiyə liderlərinin iştirakı ilə keçirilən görüşdə Qars-Naxçıvan dəmir yolu xəttinin inşasına dair Niyyət Protokolu imzalanıb. Bu strateji layihə çərçivəsində Türkiyə ərazisində 224 kilometr uzunluğunda yeni dəmir yolu xəttinin inşası planlaşdırılır və onun 5 il ərzində tamamlanaraq istifadəyə verilməsi nəzərdə tutulur. Bu dəmir yolu xətti Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında bağlantı yaratmaqla, həm də yüklərin Avropaya daşınması istiqamətində mühüm rol oynayacaq.

Azərbaycan Orta Dəhlizin inkişafı və geniş miqyaslı istifadəsi üçün mühüm addımlar ataraq dəhliz boyu ölkələrlə sıx əməkdaşlıq edir. Bu istiqamətdə 2022-ci il noyabrın 22-də Azərbaycan, Qazaxıstan və Türkiyə arasında 2022-2027-ci illəri əhatə edən "Orta Dəhliz" Yol Xəritəsi imzalanıb. Bu dəhlizin daha da gücləndirilməsinə və regiondakı ticarət əlaqələrinin möhkəmlənməsinə mühüm töhfə verəcək. Bundan əlavə, 2023-cü il noyabrın 23-də təsdiqlənmiş "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı" ölkəmizin tranzit imkanlarını daha da genişləndirməyə şərait yaradır.

Bundan başqa, 2024-cü il iyulun 3-də Azərbaycan və Çin arasında "Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul edilib. Bu mühüm sənəd Orta Dəhlizin inkişafı istiqamətində əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə və nəqliyyat-logistika sahəsində əlaqələrin daha da dərinləşməsinə imkan yaradır. Bəyannamə çərçivəsində infrastruktur layihələrinin reallaşdırılması, ticarət həcminin artırılması və iki ölkə arasında iqtisadi əlaqələrin daha da gücləndirilməsi nəzərdə tutulur. Həmçinin 2024-cü ildə təsdiqlənmiş "Çin-Avropa Dəmiryolu Ekspresi üçün Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutlarının İnkişafına dair Anlaşma Memorandumu" dəmir yolu yükdaşımalarının genişləndirilməsinə və Orta Dəhlizin tranzit potensialının artırılmasına töhfə verəcək. Bu təşəbbüs Çin və Avropa arasında ticarət dövriyyəsinin daha da intensivləşməsinə şərait yaradır və Azərbaycanın bölgənin əsas nəqliyyat qovşaqlarından birinə çevrilməsinə mühüm dəstək verir.

Xüsusi vurğulamaq lazımdır ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizi regionunda yükdaşımaları asanlaşdıran və Azərbaycanın logistika imkanlarını genişləndirən əsas nəqliyyat mərkəzinə çevrilib. Bu strateji liman ölkəmizin ərazisindən keçən "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizinin tam gücü ilə fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır. İllik 15 milyon ton yük və 100 min TEU konteyner aşırma qabiliyyətinə malik limanda 2024-cü ildə təxminən 76 min TEU ekvivalentində konteyner yüklənib. Limanın inkişafı Azərbaycanın regionda tranzit və ticarət sahəsində lider mövqeyini möhkəmləndirir. Bununla yanaşı, 2020-ci il mayın 22-də Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində yaradılan Ələt Azad İqtisadi Zonası (AFEZ) Azərbaycanın Avropa-Asiya nəqliyyat və ticarət zəncirində aparıcı rolunu daha da gücləndirir. Bu zonanın əsas məqsədi ixracyönümlü və yüksək əlavə dəyər yaradan istehsal sahələrinin inkişafını dəstəkləmək, innovativ texnologiyalara əsaslanan investorları cəlb etməkdir. Ələt Azad İqtisadi Zonası beynəlxalq yükdaşımalarda mühüm rol oynamaqla bərabər, həm də Azərbaycanın regional ticarət mərkəzinə çevrilməsinə və "Made in Azerbaijan" brendinin qlobal bazarlarda tanıdılmasına böyük töhfə verir.

Şimal ilə Cənubun, Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın Asiya və Avropa qitələri arasında körpü rolunu oynaması, ölkəmizi bir çox mühüm layihələrin əsas aktoruna çevirir. Qədim İpək Yolu və müasir "Bir kəmər, bir yol" strategiyası üçün çox vacib rol oynayan Azərbaycanın nəqliyyat-logistika üstünlüyü açıq şəkildə özünü göstərir. Azərbaycan 2013-cü ildə Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfərində Azərbaycan və Çin hökumətləri arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycan bu beynəlxalq layihənin əsas iştirakçılarından biri kimi mühüm nəqliyyat xətlərinin yaradılmasına töhfə verir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi strateji infrastrukturlar bu təşəbbüsün tərkib hissəsidir və Avropa ilə Çin arasında ən qısa və etibarlı marşrutlardan biri sayılır. Layihə Çindən yola çıxan yüklərin minimum vaxt itkisi ilə Avropaya çatdırılmasını təmin edərək ticarət əlaqələrinin genişlənməsinə imkan yaradır. Azərbaycan üçün "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşması xüsusilə böyük əhəmiyyət daşıyır. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi ilə bu marşrutun Azərbaycan üzərindən keçməsi üçün yeni imkanlar açılıb. Ölkənin tranzit potensialı sürətlə artır və son illərdə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə yükdaşımaların həcmi xeyli artıb. Eyni zamanda Azərbaycanın logistika sahəsində atdığı mühüm addımlardan biri də Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanında "Ro-Ro" terminalının istifadəyə verilməsi olub. Bu terminal yükdaşımaların sürətlənməsinə və vaxt itkisinin minimuma endirilməsinə şərait yaradır. "Bir kəmər, bir yol" layihəsi Azərbaycanın qeyri-neft sektorunun inkişafına, müxtəlif iqtisadi mənbələrdən gəlirlərin artmasına və ölkəyə daxil olan valyutanın həcminin genişlənməsinə mühüm töhfə verəcək. Azərbaycanın bu layihədə aktiv iştirakı ölkənin iqtisadi dayanıqlılığını artırmaqla yanaşı, onu beynəlxalq ticarət və tranzit mərkəzlərindən birinə çevirir.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika .- 2025.- 15 fevral (№ 35). - S.9.